“İcmaəsaslı məktəbəqədər təhsil” layihəsi çərçivəsində ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Kiçik addımlar – böyük uğurlar” adlı məktəbəqədər təhsil forumu təşkil olunub.

Forumun məqsədi erkən təhsilin uşaq inkişafındakı rolunu təbliğ etmək, eləcə də valideynləri məktəqəbədər təhsil və müvafiq yaşda uşaqların inkişafı barədə maarifləndirmək olub.

Forum çərçivəsində məktəbəqədər təhsil və iqtisadi inkişaf, məktəbəqədər təhsildə öyrənmə, valideyn əməkdaşlığı və psixopedaqoji inkişaf, məktəbəqədər təhsilin uşaq inkişafında rolu, məktəbəqədər yaş dövründə psixoloji pozuntular və müdaxilə yanaşması, məktəbəqədər yaş dövründə xüsusi təhsil ehtiyaclarının təmin edilməsi mövzularında çıxışlar olub.